- Mentorun karyerasını nəzərə almadan dərhal qəbul etmək
- Mentor seçimini başqa birinə həvalə etmək

154. Nicat həyat balansı çarxı üzrə təhlil aparır və bəzi sahələrdə nəticələrin çox aşağı olduğunu müəyyən edir. Onun həyat balansını bərpa etmək üçün hansı addım daha təsirli olar?

- Balı yüksək olan sahələr üzərində işləməyə davam etmək
- √ Daha aşağı nəticə göstərən sahələrə fokuslanmaq
- Həyat balansını yenidən təyin etməmək
- Həyat çarxında bütün sahələrə eyni resurs ayırmaq
- Həyat çarxını tamamilə ləğv etmək

155. Ayan karyerasında irəliləmək üçün uzunmüddətli bir məqsəd təyin edir, lakin bu məqsədə çatmaq üçün kiçik addımları təyin etməyib. Bu çatışmazlığı necə aradan qaldıra olar?

- Uzunmüddətli məqsədləri təxirə salmaq
- √ Məqsədləri daha kiçik və idarə edilə bilən tapşırıqlara bölmək
- Məqsəd təyin etmədən fəaliyyətə başlamaq
- Məqsədə çatmaq üçün təkcə motivasiyaya güvənmək
- Məqsədləri dəyişdirmədən davam etmək

156. Elvin karyera hədəflərinə çatmaq üçün plan hazırlayır, lakin bu plan hesabatlı deyil və irəliləyiş yoxdur. Bu vəziyyətdə hansı addımı atması daha məqsədəuyğundur?

- Hesabatlılığı vacib hesab etmədən davam etmək
- √ İrəliləyiş üçün nəticələri mütəmadi ölçmək və qiymətləndirmək
- Yalnız son nəticəyə fokuslanmaq
- Hesabatlılığı tamamilə gözardı etmək
- Planın tətbiqini başqalarına həvalə etmək

157. Aysel özünə məqsəd təyin edir, lakin reallıqdan kənar hədəflər seçdiyi üçün motivasiyasını itirir. Onun məqsədlərini daha realistik etmək üçün hansı addım uyğun olar?

- Mövcud vəziyyəti nəzərə almadan böyük hədəflərə fokuslanmaq
- Planı və hədəfləri bir anda ləğv etmək
- Hədəfləri daha abstrakt şəkildə saxlamaq
- √ Mövcud resurslara əsaslanan hədəflər müəyyənləşdirmək
- Motivasiya problemlərini gözardı edərək işə davam etmək

158. Hansı metod/alət/nəzəriyyədən hədəf təyin edilərkən istifadə olunur?

- Eyzenhauer matrisi
- Həyat balans çarxı
- Dunning-Kruger effekti
- √ SMART yanaşması
- Kaizen fəlsəfəsi

159. SMART prinsipinin məqsədi nədir?

- Heç biri
- Hədəf müəyyənləşdirərkən nəticəni ölçə bilməliyik
- Hədəf müəyyənləşdirərkən vaxta diqqət etməliyik

√ Hədəf müəyyənləşdirərkən nələrə diqqət etməliyik
• Hədəf müəyyənləşdirərkən imkanlarımıza diqqət etməliyik

160. SMART məqsəd nədir?

• Spesifik, Ölçüləbilən, Çatılabilən, Real, Müddətli (Specific, Measurable, Achievable, Real, Time Bound)
• Heç biri
• Spesifik, Ölçüləbilən, Çatılabilən, Əlaqədar, Müddətsiz (Specific, Measurable, Achievable, Relevant, Timeless)
• Üstün, Ölçüləbilən, Çatılabilən, Əlaqədar, Müddətli (Superior, Measurable, Achievable, Relevant, Time Bound)
√ Spesifik, Ölçüləbilən, Çatılabilən, Əlaqədar, Müddətli (Specific, Measurable, Achievable, Relevant, Time Bound)

161. Fərdi karyera planlama zamanı hansı mənbələrdən istifadə etmək olmaz?

• Mentorluq proqramları
• Sertifikat proqramları
• Seminarlar və konfranslar
• Oxumalar (kitablar, bloglar)
√ Ən son dəb meylləri

162. Karyerada boşluqların analizi zamanı hansı fəaliyyət planı tərtib olunmalıdır?

• Əmək haqqı hesablaması
√ Fəaliyyət planı
• Növbəti təhsil addımları
• Tətil planı
• Zaman cədvəli

163. GROW modelinin “Reality” mərhələsində hansı sual verilmir?

• Hazırda nə baş verir?
• Bu mövzu ilə bağlı indiyə qədər nə etmisiniz?
• Problemləriniz nələrdir?
√ Nəyi yaxşı edə bilərəm?
• Həyatınızda nə eksikdir?

164. Fərdi karyera planlaması neçə mərhələdən ibarətdir?

• 7
• 3
• 2
√ 4
• 6

165. Karyera yol xəritəsi nədir?

• Tələbənin dərs planı
• Müəyyən bir ixtisas üzrə təhsil planı
• İş yerindəki ofis dizaynı
√ Fərdin A nöqtəsindən B nöqtəsinə qədər olan planı
• Fərdin işə qəbul formu

166. Bir tələbə iş tapmaq məqsədilə şəxsi şəbəkəsini genişləndirmək istəyir, lakin bu prosesdə çəkinir. Ona hansı məsləhəti vermək olar?

√ Kiçik tədbirlərdə iştirak edərək özünü rahat ifadə etməyi öyrənmək
• Mövcud əlaqələri istifadə etmədən prosesə davam etmək
• Şəbəkələşməni tamamilə rədd etmək
• Şəbəkəni genişləndirmədən iş elanlarına fokuslanmaq

- Tanımadığı insanlarla ünsiyyətdən qaçmaq

167. Bir şəxs karyera məqsədi təyin edir, lakin bu məqsədi həyata keçirmək üçün resursları düzgün analiz etməyib. Bu çatışmazlığı aradan qaldırmaq üçün hansı addım daha uyğundur?

- Resursların çatışmazlığını qəbul edib fəaliyyətə başlamamaq
- Məqsədləri təxirə salaraq resurslar barədə düşünməmək
- Resursları nəzərə almadan işə başlamaq
√ Lazımi resursların siyahısını hazırlamaq və uyğun vasitələri müəyyənləşdirmək
- Yalnız mövcud resurslarla kifayətlənmək

168. Bir tələbə SMART prinsipinə əsaslanaraq məqsədini təyin etmək istəyir. Lakin onun məqsədi qeyri-müəyyəndir və ölçülə bilən nəticələr təqdim etmir. Bu məqsədin daha təsirli olması üçün nə edilməlidir?

- Daha çox məqsəd təyin etməyə çalışmaq
- Mövcud məqsədini olduğu kimi saxlamaq
√ Konkretlik və ölçülə bilən hədəflər əlavə etmək
- Məqsədi daha abstrakt saxlamaq
- Məqsədini uzunmüddətli olaraq təyin etməkdən çəkinmək

169. Bir tələbə iş müraciətindən əvvəl karyera məqsədlərini və hədəflərini təyin edir. Bu prosesdə hansı sualı özünə verməlidir?

- Karyera planlarımı gələcəkdə təxirə sala bilərəmmi?
- İş tapmaq üçün nə qədər vaxtım var?
- Hansı vakansiya ən asandır?
- Yalnız tanış vasitəsilə necə iş tapmaq olar?
√ Bu iş mənim hansı uzunmüddətli məqsədlərimə uyğun gəlir?

170. Bir işçi fərdi karyera planlaması prosesinə başlayır. İlk addımda nə etməlidir?

- Mühitə uyğunlaşma yollarını axtarmaq
- Yalnız maraqlı olan işlərə müraciət etmək
- İşə düzəlmə agentlikləri ilə əməkdaşlıq qurmaq
√ Mövcud bacarıqlarını və dəyərlərini analiz etmək
- Təhsilini artırmağa fokuslanmaq

171. Nigar gələcək karyera məqsədlərini təyin etməkdə çətinlik çəkir. GROW modelindən istifadə edərək ona hansı sualı vermək məqsədəuyğun olar?

- Alternativ olaraq hansı sahəyə keçə bilərsiniz?
- Karyera planlarınız üçün kimdən dəstək ala bilərsiniz?
- Hazırda hansı problemlərlə qarşılaşırsınız?
- Mövcud vəziyyətinizi necə dəyişə bilərsiniz?
√ Uzunmüddətli karyera məqsədləriniz nələrdir?

172. Camal karyerasında irəliləmək istəyir, lakin öz bacarıqlarının və biliklərinin hazırda müraciət etdiyi vəzifələrə uyğun olmadığını düşünür. Hansı addım ona daha çox fayda verər?

- İş axtarışını bir müddət dayandırmaq
- Mövcud bacarıqları ilə iş axtarışını davam etdirmək
- Daha az məsuliyyətli işlərə müraciət etmək
- Şirkətlərin sosial şəbəkələrdəki elanlarını izləmək
√ Öz bacarıq və biliklərini inkişaf etdirmək üçün fəaliyyət planı hazırlamaq

173. Aydan komfort zonasından çıxmaqda çətinlik çəkir, lakin karyerasında ciddi dəyişikliklər etmək istəyir. Ona hansı yanaşma daha uyğun olar?

- Mövcud bacarıqları ilə kifayətlənib yeni sahələrdən çəkinmək
- Komfort zonasını qoruyub yeni bacarıqlardan imtina etmək
- Yalnız texniki bilikləri artıraraq vəziyyəti dəyişdirməyə çalışmaq
√ Komfort zonasını tədricən genişləndirərək yeni təcrübələr əldə etmək

- Bütün komfort zonasından birdəfəlik çıxaraq yeni sahələrə keçid etmək

174. Nərmin karyerasında irəliləmək üçün şəbəkələşməyə başlamaq istəyir. Lakin, sosial əlaqələrdə çəkinən və özünü rahat ifadə edə bilməyən biridir. Ona hansı strategiyanı tövsiyə edərdiniz?

- Şəbəkələşməni tamamilə rədd edib yalnız təlimlərə fokuslanmaq
- Şəbəkələşməni yalnız iş elanlarına müraciətlə məhdudlaşdırmaq
- √ Daha kiçik sosial tədbirlərdə iştirak edərək ünsiyyət bacarıqlarını inkişaf etdirmək
- Böyük tədbirlərdə iştiraka məcbur edərək özünü sınamağa məcbur etmək
- Sosial şəbəkələrdə şəxsi brendini inkişaf etdirməkdən çəkinmək

175. Rəşid mentor seçmək istəyir, lakin potensial mentorunun onun üçün uyğun olub-olmadığına qərar verə bilmir. Mentor seçməzdən əvvəl hansı addımı atması daha uyğundur?

- Mentorun işlədiyi təşkilat haqqında məlumat toplamaq
- Mentora birbaşa müraciət edərək dəstək istəyini bildirmək
- Mentor seçimini yalnız mentorun statusuna əsaslanaraq etmək
- Mentorun sosial statusuna fokuslanaraq qərar vermək
- √ Öz hədəflərini müəyyənləşdirərək ehtiyaclarını analiz etmək

176. Bir işçi karyerasında yüksəliş istəyir, lakin liderlik bacarıqlarının zəif olduğunu qəbul edir. Bu çatışmazlığı aradan qaldırmaq üçün hansı addım daha təsirli ola bilər?

- Bacarıqlarını təkmilləşdirmək üçün yalnız öz üzərində işləmək
- Yalnız yeni vəzifələr üçün müraciətlər etmək
- Öz rəhbərindən birbaşa tənqid almağı xahiş etmək
- Yalnız texniki bilikləri artırmağa fokuslanmaq
- √ Rəhbərlərinin davranışlarını müşahidə edərək öyrənmək

177. Mentor, kouç və məsləhətçinin fərqini hansı ifadə daha yaxşı təsvir edir?

- Məsləhətçi şəxsi inkişaf mövzusunda məlumat verir, mentor isə təcrübə paylaşır
- Mentor yalnız sual verir, kouç isə məsləhət verir
- Məsləhətçi karyera üçün təlimatlar verir, kouç isə bələdçilik edir
- Mentor peşəkar suallar verir, kouç isə fəaliyyət planı hazırlayır
- √ Mentor təcrübəsini paylaşır, kouç sual verir, məsləhətçi isə strategiya təqdim edir

178. Şəxsi inkişaf qaydalarından biri hansıdır?

- İşgüzar təcrübələrdən uzaq durmaq
- Həftəlik büdcə planı hazırlamaq
- Keçmiş səhvləri təkrar etmək
- √ Pis bir vərdişi hər ay tərk etmək
- Yalnız müsbət tərəflərə fokuslanmaq

179. Karyera strategiyasında hansı yanaşma məsləhət görülmür?

- Komfort zonasından çıxmaq
- Təhsili artırmaq
- Mənfi insanlardan uzaqlaşmaq
- Təcrübəli mentorla çalışmaq
- √ Hədəfləri başqasına tapşırmaq

180. Mentor kimdir?

- √ Peşəkar qərarlar və məsləhətlər verən şəxs
- Karyera planlaması mövzusunda kitab yazarı
- Karyera qurmaq istəyən şəxs
- Tələbələrə dərs deyən müəllim

- Təşkilatın rəhbəri

181. Şəxsi inkişaf nəyi məqsəd qoyur?

- Yeni iş yerləri açmaq
- Liderlik bacarıqlarını artırmaq
- Həftəlik idman rejimi qurmaq
- √ İnsanların mənfi duyğu və inanclarını müsbətə çevirmək
- İnsanların peşəkar şəbəkəsini genişləndirmək

182. Bir gənc iş həyatında uğur qazanmaq üçün şəxsi inkişaf prosesinə başlamaq istəyir. Onun mənfi düşüncələrə qapılmağa meyilli olduğunu və vaxtını daha çox televiziya izləməklə keçirdiyini müşahidə edirsiniz. Ona hansı strategiyanı tövsiyə etmək daha uyğun olar?

- Sosial mühitdən uzaqlaşıb yalnız özünü inkişaf etdirməyə fokuslanmaq
- Televiziya izləməyi artırmaqla yanaşı yeni bir hobbi tapmaq
- Hər həftə bir pis vərdişi tərk etmək barədə vəd vermək
- Yalnız mənfi düşüncələrdən uzaqlaşmaq üçün meditasiya etmək
- √ Kitab oxumağı vərdiş halına gətirmək və müsbət düşüncələri təşviq etmək

183. İş axtarışı strategiyasında ən çox rast gəlinən əfsanələrdən biri hansıdır?

- İş elanları yalnız şirkətlərin saytlarında mövcuddur
- İşə qəbul üçün yalnız şəbəkə faydalıdır
- Bütün namizədlər eyni şərtlərlə qiymətləndirilir
- Əsas göstərici namizədin iş təcrübəsidir
- √ Hər iş elanına tez cavab gəlir

184. İş axtarışında onlayn alətlərin mənfi tərəfi hansıdır?

- √ Rəqiblərin çoxluğu
- Universallıq
- Məlumatların istifadəyə yararsız olması
- Hər yaş qrupu üçün uyğunsuzluq
- Yavaş internet sürəti

185. Bir işəgötürən müsahibə zamanı namizədə "Niyə məhz bizim şirkətə qoşulmaq istəyirsiniz?" sualını verir. Namizədin effektiv cavabı nə ola bilər?

- "Şirkətiniz haqqında heç bir məlumatım yoxdur."
- "Sadəcə iş axtarıram, fərqi yoxdur harada."
- "Bura yaxın olduğuna görə müraciət etdim."
- √ "Şirkətinizin innovativ yanaşması və dəyərləri mənə ilham verir."
- "Yüksək maaş təklif etdiyinizi eşitdim."

186. Təsəvvür edin ki, yeni məzun bir tələbəsiniz və iş axtarışına başlamısınız. Sosial şəbəkələrdə hansı addımı atmaq daha effektiv olar?

- Heç bir paylaşım etməmək və başqalarından yardım gözləmək
- Peşəkar iş elanları səhifələrini izləmək
- Sadəcə şəxsi profilinizdə paylaşım etmək
- √ Vakansiya qruplarına qoşulub paylaşım izləmək
- Yalnız dostlarınızla iş axtardığınızı bölüşmək

187. İşçinin bazar dəyərini artırmaq üçün hansı fəaliyyətlər effektiv sayılır?

- Şəbəkəni genişləndirmək və sosial mediada aktiv olmaq
- Yalnız yüksək maaşlı işlərə müraciət etmək
- Yalnız bir iş axtarışı alətindən istifadə etmək

- Yalnız təhsilini artırmaq
√ Könüllülük fəaliyyəti və sahə təcrübələri

188. İş axtarışında uğur qazanmaq üçün istifadə olunan "Şəbəkə" anlayışı hansı mənanı ifadə etmir?

- Şirkətə birbaşa müraciət etmək
- Qeyri-formal əlaqələrlə iş tapmaq
- Sosial şəbəkələrdə iş elanları paylaşmaq
√ Rekrutinq şirkətlərinə müraciət etmək
- Yaxın dost-tanışlardan yardım istəmək

189. Bir iş axtaran namizəd öz bacarıqlarının əmək bazarına uyğun olmadığını düşünür və motivasiyasını itirir. Bu vəziyyətdə namizədə hansı strategiya tövsiyə olunmalıdır?

- İş axtarışını tamamilə dayandırmaq
- Şəbəkələşmə ilə məşğul olmaq və dostlarının dəstəyinə güvənmək
- Aşağı tələblərə malik işlərə müraciət etmək
√ Bacarıqlarını inkişaf etdirmək üçün təlim və kurslarda iştirak etmək
- İş axtarışı ilə bağlı rəqabət aparmaqdan çəkinmək

190. İş axtarışına başlamazdan əvvəl hansı addımlar doğru deyil?

- Hər hansı bir iş olsun deyə müraciət etmək
- Yalnız şirkətlərin saytlarını nəzərdən keçirmək
- Yalnız ən yüksək maaşlı vakansiyalara fokuslanmaq
√ Əvvəlcə öz məqsəd və bacarıqlarını analiz etmək
- İş elanlarını təsadüfi seçmək

191. Bir dostunuz yeni işə qəbul olmaq üçün sizinlə məsləhətləşir. Ona hansı məsləhəti verərdiniz?

- Sadəcə ona yaxın olan işlərə müraciət etsin
- Yalnız öz peşəsinə uyğun işlərə müraciət etsin
- İş tapmaq üçün bir neçə ay gözləsin
√ Bir neçə iş axtarışı alətindən istifadə etsin
- Təkcə dost-tanış vasitəsilə iş tapsın

192. Bir şirkətdə "top management" vəzifəsi üçün vakansiya açılsa və bu, konfidensial saxlanılsa, nə etməli?

- İşəgötürənlə birbaşa əlaqə qurmaq
- Tanışlar vasitəsilə məlumat almaq
- İş elanlarını izləmək
- Sosial şəbəkələrdə paylaşım etmək
√ Şirkətə birbaşa müraciət etmək

193. Sosial şəbəkələr vasitəsilə iş axtarmağın mənfi tərəfi nədir?

- İş elanlarının keyfiyyətsiz olması
- Reklamların çoxluğu
√ Rəqabətin çoxluğu və məlumatların qarışıqlığı
- Şəbəkələşmənin effektiv olmaması
- İnformasiyanın az olması

194. İş axtarışı zamanı "bazar dəyərinin artırılması" hansı vasitələrlə həyata keçirilə bilər?

- Yalnız könüllülük fəaliyyəti ilə
- Sahə üzrə təcrübə və araşdırmalarla
√ Yuxarıdakıların hamısı ilə

- Yalnız yüksək maaşlı işlərlə
- Təcrübə proqramları və şəbəkələşmə ilə

195. Bir namizəd iş axtararkən bir neçə şirkətdən rədd cavabı alır. Onun növbəti addımı nə olmalıdır?

- Daha az uyğun olan işlərə müraciət etmək
- Yalnız yüksək maaşlı işlərə müraciət etmək
- İş axtarışını tamamilə dayandırmaq
- √ Yeni bacarıqlar öyrənmək və CV-ni yeniləmək
- Sosial mediada şikayət etmək

196. Bir işəgötürən kimi hansı namizədə üstünlük verərdiniz?

- Müsahibədə özünü yaxşı təqdim edən namizəd
- Yalnız təcrübəli namizəd
- Komandada işləmək bacarığı olan namizəd
- Şirkətin tələblərinə uyğun sertifikatı olan namizəd
- √ Yuxarıda qeyd olunan bütün şərtləri qismən ödəyən namizəd

197. Aşağıdakılardan hansı işçilər üçün əsas bazar dəyəri komponentidir?

- Dostluq əlaqələri
- Ailə əlaqələri
- Sosial media
- Coğrafi yer
- √ Brend təqdimatı

198. Ənənəvi bir iş axtarışı prosesi olaraq nə qədər vaxt apara bilər?

- Bir ildən çox
- 10-15 gün
- 1-2 ay
- 6-12 ay
- √ 3-6 ay

199. Aşağıdakılardan hansı iş axtaranlar üçün vacib olan dörd xüsusiyyətdən biri DEYİL?

- Bacarıqlı olmaq
- Məqsədinizi bilmək
- Səbrli olmaq
- √ Əvvəlki iş təcrübəsinin olması
- Hədəfini bilmək

200. Düşüncə tərzinin iki əsas növü hansılardır?

- Müsbət və mənfi düşüncə
- Yanlış və doğru düşüncə
- Analitik və yaradıcı düşüncə
- √ Reaktiv və proaktiv düşüncə
- Strateji və taktiki düşüncə

201. Bir şəxs iş axtarışında reaktiv düşüncə tərzinə malikdir və öz uğursuzluqlarını həmişə xarici amillərlə əlaqələndirir. Ona bu problemi aşmaq üçün hansı addımları tövsiyə etmək olar?

- Digər ölkələrdə iş axtarışına başlamaq
- İşə qəbul prosesini daha asan keçmək üçün yaxınlarına etibar etməsini tövsiyə etmək
- Təhsilini genişləndirmək üçün yeni kurslara yazılmaq
- √ Özünü proaktiv düşüncə tərzinə uyğunlaşdırmaq üçün öz uğursuzluqlarını analiz etməsini təklif etmək

- Problemi həll etmədən iş axtarışını dayandırmaq

202. Bir iş axtaran bazarda öz dəyərini aşağı qiymətləndirir və bu səbəbdən həddindən artıq aşağı maaş təkliflərinə razılaşır. Siz onun bazar dəyərini doğru qiymətləndirməsi üçün hansı yanaşmanı tövsiyə edərsiniz?

- Yalnız rekrutinqlərdən alınan təkliflərə fokuslanmaq
- Sosial şəbəkələrdə maaş gözləntisini açıq şəkildə qeyd etmək
- Daha yüksək maaş təklif edən vakansiyalarla maraqlanmasını tövsiyə etmək
√ Könüllülük və təcrübə proqramlarında iştirak etməklə öz bazar dəyərini artırmaq
- Şirkətlərin ona təklif etdikləri maaşlarla razılaşmasını tövsiyə etmək

203. Bir namizəd proaktiv düşüncəyə sahib olduğunu iddia edir, lakin iş tapmaq üçün konkret addımlar atmır və yalnız rekrutinqlərin ona uyğun iş tapacağını gözləyir. Bu vəziyyətdə onun iş tapma strategiyasını inkişaf etdirmək üçün hansı məsləhəti vermək daha doğru olar?

- Yalnız rekrutinqlərlə əməkdaşlığı davam etdirmək
- İş axtarışını yalnız onlayn platformalarla məhdudlaşdırmaq
√ Sosial şəbəkələrdə şəbəkələşmə strategiyası qurmasını tövsiyə etmək
- CV-sini müxtəlif sahələrdəki bütün vakansiyalara göndərməsini məsləhət görmək
- Onu passiv düşüncə tərzinə uyğun işlərə yönləndirmək

204. Bir iş axtaran şəxs məsləhət üçün sizə müraciət edir və bildirir ki, iş elanlarına müraciət etməsinə baxmayaraq heç bir cavab ala bilmir. Problemi həll etmək üçün hansı addımı atmalısınız?

- Onu könüllülük proqramlarına yönləndirmək
- İşə qəbul mütəxəssisləri ilə əlaqə yaratmasını məsləhət görmək
√ Namizədin CV-sini və təqdimatını yenidən nəzərdən keçirmək
- Namizədə iş axtarmağı dayandırmağı tövsiyə etmək
- Daha çox vakansiyaya müraciət etməyi məsləhət görmək

205. Bir namizəd iş axtarışına başlayır, lakin mütəmadi olaraq öz bacarıqlarını qeyri-kafi hesab edir və bu səbəbdən müraciətlərdən çəkinir. Siz karyera məsləhətçisi olaraq ona hansı tövsiyəni verməlisiniz?

- Bacarıqlarının kifayət qədər olmadığını qəbul edib fərqli sahələrdə iş axtarmağı məsləhət görmək
√ Bacarıqlarını inkişaf etdirmək üçün təhsil almaq və eyni zamanda müraciətlər etməyə davam etmək
- İş axtarışını dayandırıb şəxsi iş qurmağı tövsiyə etmək
- Sosial şəbəkələrdə iş axtarışı ilə bağlı elan verməsini tövsiyə etmək
- Hazırda sahib olduğu bacarıqlarla istənilən işə müraciət etməsi üçün onu inandırmaq

206. Müsahibəyə hazırlığın mərhələləri hansılardır?

- Müsahibə ilə bağlı heç bir hazırlıq görməmək.
- Şirkət haqqında məlumat toplamaq, özünüzü təqdim etməyə hazırlaşmaq.
√ Hazırlıq (40%), müsahibənin özü (40%), əks-hücum (20%).
- Qorxularınızı aradan qaldırmaq və özünüzə inam yaratmaq.
- Şirkətin dəyərlərini əzbərləmək, intervü zamanı natiqlik bacarıqlarını nümayiş etdirmək.

207. Telefon müsahibəsinə hazırlaşırsınız. Sizdən əsasən hansı məqamları diqqətdə saxlamağınız tələb olunur?

- Sadəcə bir neçə cavab variantı hazırlamaq.
- Telefonu səsli rejimə qoymaq.
√ Danışacağınız yerin sakit və diqqət yayındırmayan bir məkan olduğuna əmin olmaq.
- Veriləcək bütün sualları əzbərləmək.
- Yüksək səslə danışmaq.

208. Müsahibə nədir?

- Namizədin psixoloji vəziyyətini yoxlama üsuludur.
- Şirkətin gələcək planlarını öyrənmək üçün bir prosesdir.

- İşə qəbul menecerinin şəxsi görüşlər keçirmə üsuludur.
- √ Vakansiyaya uyğunluğunuzu və işə marağınızı dəyərləndirən prosesdir.
- Yalnız işçinin bacarıqlarını dəyərləndirən testdir.

209. STAR modelinin komponentləri hansılardır?

- Situation, Task, Answer, Result
- Subject, Time, Action, Result
- √ Situation, Task, Action, Result
- Situation, Time, Action, Result
- Subject, Task, Action, Reaction

210. Davranışa əsaslanan iş müsahibəsində (Behavioral Interview) hansı prinsip tətbiq olunur?

- Namizədin stresə reaksiyasını yoxlamaq
- Namizədin yalnız texniki bacarıqlarını yoxlamaq.
- Namizədin gələcək hədəflərini müəyyənləşdirmək
- √ Keçmiş davranışların gələcək davranışların göstəricisi olduğu prinsipi
- Namizədin yalnız təhsilini nəzərə almaq.

211. Panel müsahibəsinin əsas üstünlüyü nədir?

- Yalnız bir müsahibə aparanın iştirakı
- Namizədin özünü rahat hiss etməsini təmin etmir.
- √ Namizədin bir neçə müxtəlif aspektinin eyni zamanda qiymətləndirilməsi
- Namizədin stres altında qalmasının qarşısını alır.
- Müsahibə zamanı namizəd rahatlıq hiss edir.

212. Qrup müsahibəsi hansı hallarda tətbiq olunur?

- Yalnız uzun illər iş təcrübəsi olan namizədlər üçün.
- Komanda ilə iş bacarıqlarının əhəmiyyətsiz olduğu hallarda.
- Stressə davamlılıq bacarıqlarının əhəmiyyətsiz olduğu hallarda.
- Namizədlər arasından seçim etmək üçün vaxt çox olduqda.
- √ Qısa müddətə işçi tapmaq, oxşar keyfiyyətlərə malik namizədlər çox olduqda və komanda ilə iş bacarıqlarının yoxlanılması üçün.

213. Strukturlaşdırılmış müsahibənin əsas xüsusiyyəti nədir?

- Qeyri-rəsmi və sərbəst suallar verilir.
- Müsahibədə stress yaradılmasına çalışılır.
- Müsahibədə yalnız bir sual verilir.
- √ Namizədin tərcümeyi-halı, iş təcrübəsi və karyera yolu ətraflı öyrənilir.
- Namizədlər qrup şəklində müsahibə olunur.

214. Müsahibəyə nə gətirməlisiniz?

- Heç bir şey
- Yalnız CV-niz
- Yalnız şəxsi uçot vərəqi
- Yalnız tərcümeyi-hal
- √ CV və müvafiq sənədlərin əlavə surətləri

215. Qrup müsahibəsi zamanı ən yaxşı yanaşma hansıdır?

- Tam səssiz qalın
- √ Başqalarına hörmət edərək iştirak edin
- Sizə söz verilməsini gözləmədən müzakirəyə qatılın
- Tez-tez başqaların söhbətinə müdaxilə edin
- Digər namizədləri tənqid edin

216. Stress müsahibəsinin əsas məqsədi nədir?

- Ünsiyyət bacarığını yoxlamaq
- Dil biliklərini yoxlamaq üçün
- Texniki bilikləri qiymətləndirmək
- √ Stressə dözümlülük və uyğunlaşma qabiliyyətini qiymətləndirmək
- Təhsil biliklərini yoxlamaq üçün

217. Strukturlaşdırılmış müsahibənin əsas məqsədi nədir?

- Əmək haqqı gözləntilərini müzakirə etmək
- Yalnız psixoloji hazırlığını yoxlamaq
- Namizədlə təsadüfi söhbət yaratmaq
- Yalnız texniki bacarıqları yoxlamaq üçün
- √ CV detallarını yoxlamaq və peşəkar bacarıqları qiymətləndirmək

218. Müsahibə sualını başa düşmürsənsə, nə etməli?

- Sualı eşitməmiş kimi davran
- Cavabı təxmin et
- Suala cavab verməkdən yayın
- Sualı dəyişməsini de
- √ Aydınlaşdırma xahiş edin

219. Davranış müsahibələrində STAR modeli nə üçün istifadə olunur?

- Keçmiş nailiyyətlərin qiymətləndirilməsi
- Texniki bacarıqların qiymətləndirilməsi
- Yazı bacarıqlarının yoxlanılması
- Dil biliyinin yoxlanılması
- √ Vəziyyətin, Tapşırıqın, Fəaliyyətin və Nəticənin təhlili

220. İş müsahibəsinə nə qədər tez gəlmək lazımdır?

- 30-45 dəqiqə əvvəl
- 5-10 dəqiqə gecikmək olar
- Vaxtında
- 1 saat əvvəl
- √ 10-15 dəqiqə əvvəl

221. Müsahibə üçün geyim üçün əsas rəng kimi hansı rəng tövsiyə olunur?

- Yaşıl
- Sarı
- Qırmızı
- Narıncı
- √ Boz

222. Panel müsahibəsi zamanı tövsiyə olunan yanaşma hansıdır?

- Qarşıdakının söhbətinə tez-tez müdaxilə edə bilərsiniz
- Bütün məqamları əhatə etmək üçün tez danışın
- √ Söhbət zamanı qeydlər aparın
- Panel üzvləri ilə göz təmasından çəkinin
- Yalnız ən yaşlı müsahibəçiyə diqqət yetirin

223. Bunlardan hansı müsahibə zamanı müsbət bədən dili siqnalı DEYİL?

- Müvafiq göz təmasını saxlamaq

- Diqqətlə dinləmək
- Oturarkən bir az irəli əyilmək
- Müzakirə zamanı qeydlər etmək
√ Kresloda irəli-geri yellənmək

224. Nə üçün müsahibə zamanı jarqonlardan istifadə edilməməlidir?

- Jarqon istifadə etməmək üçün xüsusi bir səbəb yoxdur.
- Jarqonlar müsahibənin nəticəsini yaxşılaşdırır.
- Söhbəti daha maraqlı etmək üçün jarqon vacibdir.
- Jarqonlar işəgötürənin diqqətini yayındıra bilər.
√ Jarqonlardan istifadə peşəkarlıq təəssüratı yaratmır.

225. Bir şirkət təcrübəsi olmayan namizədləri qəbul etmək istəyir və onların şəxsiyyət xüsusiyyətlərini və ünsiyyət bacarıqlarını qiymətləndirmək niyyətindədir. Hansı müsahibə növü bu vəziyyətə ən yaxşı uyğundur?

- Stress müsahibəsi
- Strukturlaşdırılmış müsahibə
- İnformasiya məqsədli müsahibə
√ Qrup müsahibəsi
- Davranışa əsaslanmış müsahibə

226. Bir şirkət yeni vəzifəyə peşəkar səriştələri yoxlamaq və namizədin texniki biliklərini qiymətləndirmək üçün bir neçə mütəxəssis cəlb etmək istəyir. Hansı müsahibə növü bu məqsədə uyğun gəlir?

- Davranışa əsaslanmış müsahibə
√ Panel müsahibəsi
- Strukturlaşdırılmış müsahibə
- Davranışa əsaslanmış müsahibə
- Qrup müsahibəsi

227. Bir namizədin keçmiş iş təcrübələrində ziddiyyətli məlumatlar mövcuddur. Şirkət onun doğruluğunu və stresə dözümlülüyünü yoxlamaq istəyir. Bu məqsədlə hansı müsahibə növü daha məqsədəuyğundur?

- Strukturlaşdırılmamış müsahibə
- Panel müsahibəsi
- İnformasiya məqsədli müsahibə
- Qrup müsahibəsi
√ Stress müsahibəsi

228. Bir namizəd texniki biliklərə malikdir, lakin keçmiş işində davranış problemləri ilə bağlı tənqid alıb. Şirkət, bu namizədin gələcək davranışını öyrənmək üçün hansı müsahibə üsulunu seçməlidir?

- İnformasiya məqsədli müsahibə
- Panel müsahibə
- Stress müsahibəsi
√ Davranışa əsaslanmış müsahibə
- Qrup müsahibəsi

229. Bir şirkət təcili olaraq vakansiyanı doldurmaq istəyir. İşin əsas tələbləri stressə davamlılıq və ünsiyyət bacarıqlarıdır. Həmçinin komanda ilə iş qabiliyyəti də əsasdır. Şirkət bu vəziyyətdə hansı müsahibə növünü tətbiq etməlidir?

- Strukturlaşdırılmış müsahibə
- Davranışa əsaslanmış müsahibə
- Stress müsahibəsi
√ Qrup müsahibəsi+G190I157G164:G185G164:G194I157G164:G185GG164:G190
- Panel müsahibə

230. Müsahibə əsnasında bir neçə çətin sualla qarşılaşırsınız. Hansı strategiya daha məqsədəuyğundur?

- Cavab vermək əvəzinə digər mövzulara fokuslanmaq
- Sualı tam cavablandıra bilmədiyinizi etiraf etmək
- √ Fikirləşmək üçün vaxt istəmək və cavabınızda real misallar göstərmək
- Çətin suallardan qaçmaq
- Cavab verməmək üçün mövzunu dəyişmək

231. Müsahibədə “Niyə sizi seçməliyik?” sualı verildikdə hansı cavab daha inandırıcıdır?

- İstənilən işlə məşğul ola biləcəyim üçün
- Bu işə çox ehtiyacım olduğu üçün
- Digər namizədlərdən daha çalışqan olduğum üçün
- Yüksək təhsil aldığım üçün
- √ Bu sahədə təcrübəm və bacarıqlarım şirkətinizin ehtiyaclarına uyğundur

232. Siz HR mütəxəssisisiniz. Telefonla müsahibə təyin edərkən namizəd sizdən hansı məlumatları soruşmalıdır?

- İş haqqında tam məlumat
- HR şöbəsinin rəhbərinin tərcümeyi-halı
- İşçinin əvvəlki vəzifə maaşını
- √ Müsahibənin vaxtı, məkanı və əlaqə məlumatları
- Şirkətin digər vakansiyaları haqqında məlumat

233. Müsahibədə özgüvənli davranış nümayiş etdirmək üçün hansı yanaşma daha doğrudur?

- √ Öz güclü və zəif tərəfləriniz barədə səmimi məlumat vermək və qarşı tərəfi də qiymətləndirmək
- Müsahibəyə bir tərəfli seçim prosesi kimi yanaşmaq
- Çətin suallardan qaçmağa çalışmaq
- Müdafiə mövqeyi tutaraq müsahibəni tez bitirmək
- Sual verməkdən çəkinmək və yalnız soruşulanları cavablandırmaqMüsahibəyə bir tərəfli seçim prosesi kimi yanaşmaq

234. Müsahibə zamanı "Niyə məhz bu şirkətdə işləmək istəyirsiniz?" sualı verilir. Bu suala ən uyğun cavab hansı ola bilər?

- Bu sahədə başqa bir iş tapa bilmədiyim üçün
- İşə qəbul prosesinizin sadəliyinə görə
- Yüksək maaş təklif etdiyiniz üçün
- Məsuliyyətlərin az olması mənim üçün rahatdır
- √ Şirkətinizin bazarda uğurlu mövqeyini bəyəndiyim və peşəkar inkişaf üçün imkanlar təklif etdiyiniz üçün

235. Situasiya: Sizə iş müsahibəsi üçün uyğun olmayan bir vaxt təklif edilir. Bu halda necə davranmalısınız?

- Təklif edilən vaxtı qəbul edərək iş görüşünə getmək.
- Zəng edən şəxsin təkidini gözləmək.
- Heç bir reaksiya verməmək və vaxtında iştirak etməmək.
- √ Uyğun olmadığını bildirərək alternativ vaxt təklif etmək.
- Müsahibədən imtina etmək.

236. Güclü namizədin xüsusiyyətlərindən biri hansıdır?

- Sadəcə çox yüksək maaş tələb etmək.
- √ Özgüvənli olmaq, bacarıqlarını nümayiş etdirmək.
- Göz kontaktından qaçmaq.
- Çətin suallardan qaçmaq.
- Müsahibəyə həddindən artıq emosional yanaşmaq.

237. Situasiya: İşə qəbul üçün keçirilən panel müsahibə zamanı namizəd aşağıdakı hərəkətlərdən hansını etməməlidir?

- Cavablarını konkret misallarla dəstəkləmək.

- Özünü rahat, amma ciddi şəkildə aparmaq.
- Digər iştirakçılardan daha tez cavab verməkk üçün tələsmək.
- √ Verilən suala uyğun olmayan hekayələr danışmaq.
- Öz növbəsini gözləmək və dinləmək.

238. Etika" sözünün mənşəyi nədir və nəyi ifadə edir?

- Latın dilində "ethica" yalnız əxlaq fəlsəfəsi deməkdir
- "Etnik" sözündən götürülüb
- Sanskritçe "dharma" vəzifə deməkdir
- √ Yunanca "ethos" və latınca "mores" xarakter və adət deməkdir
- Ərəbcə "ədəb" davranış deməkdir

239. Emosional zəkanın dörd səviyyəli modeli kim tərəfindən irəl sürülmüşdür?

- Sigmund Freud
- Edward Thorndike
- Howard Gardner
- √ John Mayer və Peter Salovey
- Daniel Goleman

240. Hansı faktor emosional zəkanın inkişafına kömək edir?

- Yalnız intellektual oyunlar oynamaq
- Emosiyaların tamamilə unutmaq
- Yalnız akademik müvəffəqiyyət
- Tamamilə tək başına iş
- √ İnsanın sosial əlaqələri qurma qabiliyyəti

241. Emosiyalar bədən dilinə və üz hərəkətlərinə necə təsir edir?

- Heç bir təsir etmir
- Sadəcə mənfi emosiyalarda
- Tamamilə müstəqil şəkildə
- Yalnız müsbət emosiyalarda
- √ Emosiyaların ifadəsini artıraraq

242. Emosional zəkanın tarixi inkişafında hansı tədqiqatçıların adı çəkilir?

- Edward Thorndike
- Albert Einstein
- Sigmund Freud
- √ John Mayer və Peter Salovey
- Carl Jung

243. Hansı hiss emosional zəkanın mərkəzindədir?

- Neokorteks
- Talamus
- √ Amigdala
- Hipokampus
- Prefrontal lob

244. Emosional zəka və intellektual zəka arasındakı fərq nədir?

- İntellektual zəka yalnız akademik mühitlə bağlıdır
- Hər ikisi eyni anlayışlardır
- İntellektual zəka yalnız riyazi bacarıqlarla bağlıdır
- √ Emosional zəka iş həyatında daha çox uğur üçün vacibdir

- Emosional zəka yalnız şəxsi həyata aiddir

245. Daniel Goleman emosional zəkanı necə tərif edir?

- Duyğuların tamamilə idarə olunmaması
- Sadəcə düşüncə və məntiq ilə hərəkət etmək
- Yalnız başqalarının duyğularını anlamaq
- √ Öz duyğularımızı və başqalarının duyğularını tanımaq və anlamaq
- Sosial münasibətlərin tamamilə unudulması

246. Emosional beyin hansı hissəni əhatə edir?

- √ Limbik sistem
- Talamus
- Neokorteks
- Prefrontal lob
- Amigdala

247. Emosional zəkanın əsas funksiyalarından biri hansıdır?

- √ İnsanı fəaliyyətə hazırlamaq
- İnsanın tək başına işləməsini təşviq etmək
- Yalnız məntiqi qərar qəbul etmək
- Duyğuları tamamilə unutmaq
- Sadəcə sosial münasibətləri tənzimləmək

248. Emosiya nədir?

- İnsanların düşüncə prosesidir
- İnsanın öyrənmə qabiliyyətidir
- √ Daxili və xarici mühitdən gələn qıcıqların ağrı və ya həzz təəssüratı yaratmasıdır
- Yalnız müsbət hisslərin toplusudur
- Sosial münasibətlərin tənzimlənməsi üçün istifadə olunan bir vasitədir

249. Emosional zəka ilə bağlı ilk termini kim təqdim etmişdir?

- Edward Thorndike
- Reuven Bar-On
- Howard Gardner
- √ John Mayer və Peter Salovey
- Daniel Goleman

250. Akif komandası ilə müzakirə etmədən qərar qəbul edir və bu, iş prosesinə mənfi təsir göstərir. Daniel Golemanın emosional zəka modelinə əsasən, Akifdə hansı zəka zəifliyi var?

- Özünü dərk etməmək
- Empatiya qurmaqda çətinlik çəkmək
- √ Münasibətləri idarə edə bilməmək
- Özünü idarə edə bilməmək
- Özünü motivasiya edə bilməmək

251. Emosional zəkanın əsas funksiyalarından biri hansıdır?

- İnsanları qorxuya salmaq
- √ Sosial münasibətlərin tənzimlənməsi
- Məqsədsiz fəaliyyətə təkan vermək
- İnsanların fikirlərini dəyişmək
- Duyğuları gizlətmək

252. Bir iş yoldaşınızın tez-tez stressli hallarda emosiyalarına nəzarət edə bilmədiyini və komandadakı atmosferi pozduğunu müşahidə edirsiniz. Bu işçiyə emosional zəkanın gücləndirilməsi üçün hansı təkliflər vermək daha doğru olar?

- İşdən uzaqlaşdırılmasını tövsiyə etmək
- İşdən uzaqlaşdırılmasını tövsiyə etmək
- Onu diqqətsiz davranışlarına görə tənqid etmək
- √ Öz duyğularını dərk etmək və idarə etmə yollarını öyrənməsini təklif etmək
- Daha az məsuliyyətli işlərdə çalışmasını təmin etmək

253. Bir işçi fövqəladə vəziyyətdə stressə qapılır və bir müddət ərzində düzgün qərar verə bilmir. Beynin hansı hissəsi bu vəziyyətdə daha tez işə düşərək belə bir reaksiyaya səbəb olur?

- Hipokampus
- Prefrontal lob
- Talamus
- √ Limbik sistem
- Neokorteks

254. Bir şirkət rəhbəri işçilərinin komanda işini yaxşılaşdırmaq istəyir. Rəhbər bir işçi ilə bağlı digər işçilərin onun emosional olaraq komanda ilə uyğunlaşmadığını bildirən şikayətlər alır. Rəhbər bu vəziyyətdə hansı addımı atmalıdır?

- √ İşçilərə emosional zəka təlimləri təşkil etməlidir
- Şikayətləri qulaqardına vurmalıdır
- İşçilər arasında rəqabəti artırmalıdır
- İşçini başqa bir şöbəyə göndərməlidir
- İşçini dərhal işdən çıxarmalıdır

255. Emosional zəkanın iş həyatında uğura təsiri nə qədərdir?

- 0.40
- 1
- 0.20
- √ 0.80

256. Amigdala beyində hansı rolu oynayır?

- √ Emosional reaksiyaların yaranmasına cavabdehdir
- Rasional qərarların əsasını təşkil edir
- Sadəcə xatirələri yadda saxlayır
- Beynin dil funksiyalarını idarə edir
- Beyni qoruyucu reflekslərlə təmin edir

257. Daniel Golemanın fikrincə, emosional zəka nədir?

- Sadəcə liderlik bacarığını təkmilləşdirmək
- Bioloji proseslərin idarə olunması
- Yalnız duyğuları tanıma qabiliyyəti
- √ Öz duyğularını və başqalarının duyğularını idarə etmək bacarığı
- İnsanların fikirlərinə təsir göstərmək bacarığı

258. Limbik sistem beyində hansı funksiyanı yerinə yetirir?

- Nitqin formalaşmasını təmin edir
- Məntiqi düşüncəni idarə edir
- Sadəcə xatirələri saxlayır
- Hərəkət koordinasiyasına cavabdehdir
- √ Emosiyaları idarə edir və instinktləri tənzimləyir

259. Emosiyanın əsas funksiyalarından biri nədir?

- İnsanları sosial fəaliyyətlərdən uzaqlaşdırmaq
- Yalnız bioloji proseslərə təsir etmək
- Emosiyalar həmişə müsbət olur
- √ Gələcək davranışların formalaşdırılması
- Beynin rasional hissələrini inkişaf etdirmək

260. Emosional zəkanın liderlər üçün vacib bir xüsusiyyəti hansıdır?

- Komandaya sərt davranmaq
- Yalnız öz maraqlarını güdmək
- Başqalarının hisslərinə biganə olmaq
- √ Münaqişələri həll etmək və əməkdaşlığı artırmaq
- Yalnız fərdi qərar qəbul etmək

261. Emosional zəkanın intellektual zəkadan üstün olduğu əsas sahə hansıdır?

- Texniki bilikləri öyrənmək
- Elmi tədqiqatlar aparmaq
- Məntiqi qərarlar qəbul etmək
- √ Şəxsi və iş münasibətlərini idarə etmək
- Yüksək akademik nailiyyətlər qazanmaq

262. Professor Cəmil Dadaşov stresli vəziyyətdə nitqini tamamlaya bilmir. Bu halda o, emosional zəkanın hansı xüsusiyyətində zəiflik nümayiş etdirir?

- Empatiya qurmaqda çətinlik
- Özünü dərk etməmək
- Özünü motivasiya edə bilməmək
- √ Özünü idarə edə bilməmək
- Münasibətləri idarə edə bilməmək

263. Təşkilatda subordinasiyanın əsas məqsədi nədir?

- √ Aydın iyerarxik əlaqələr qurmaq
- İdarəçilikdə bərabərlik yaratmaq
- Qeyri-rəsmi ünsiyyəti təşviq etmək
- İşçilər arasında rəqabət yaratmaq
- Rəhbərlik vəzifələrini ləğv etmək

264. İşgüzar məktublar yazarkən nələrdən çəkinmək lazımdır?

- Əlaqə məlumatları daxil olmaqla
- Peşəkar imzalardan istifadə
- Düzgün və lakonik yazmaqdan
- √ Yalnız böyük hərflərlə yazın
- Paraqraflardan istifadə

265. Biznes e-poçtuna cavab vermək üçün tövsiyə olunan müddət nədir?

- Qəbul edildikdən dərhal sonra
- 5 iş günü ərzində
- Bir həftə ərzində
- 48 saat ərzində
- √ 24 saat ərzində

266. Korporativ mədəniyyətin hansı növü tapşırıqların rasional bölüşdürülməsi ilə xarakterizə olunur?

- Sabit mədəniyyət
- Qeyri-sabit mədəniyyət

√ Demokratik mədəniyyət
• Liberal mədəniyyət
• Avtoritar mədəniyyət

267. İş yeri kontekstində “mobbinq” nədir?

• Komanda birliyi
• Komanda qurma məşqi
• Qrup layihələrinin idarə edilməsi
√ İş yerində psixoloji terror və ya təzyiq
• Ofisin yenidən qurulması prosesi

268. Əsas korporativ mədəniyyətlərdə adətən neçə əsas komponent müşahidə olunur?

• Yeddi komponent
• Dörd komponent
• Beş komponent
√ Altı komponent
• İki komponent

269. Korporativ mədəniyyət ilk növbədə nə ilə müəyyən edilir?

• Sərt qaydalar və qaydalar sistemi
• Təşkilatın maliyyə siyasəti
• Bir sıra geyim kodları və ofis planları
√ İşçilər tərəfindən paylaşılan dəyərlər, simvollar, inanclar və davranışlar sistemi
• Təşkilati işlər

270. E-mail vasitəsilə təşkilatın bütün işçilərinə müraciət etməlisiniz. Ancaq bəzi məlumatların məxfiliyini qorumaq üçün yalnız seçilmiş şəxslərin ünvanlarını göstərmək istəyirsiniz. Hansı bölmədən istifadə etməlisiniz?

• Reply All
• Forward
• To
• Cc
√ Bcc

271. Sizin rəhbərlik etdiyiniz təşkilatda işçilər arasında gizli məlumatların sızması problemi yaşanır. Gizliliyi təmin etmək üçün hansı addımı atmalısınız?

• İşçilərə ciddi xəbərdarlıq etmək
• Məlumat sızdıran işçiləri dərhal cəzalandırmaq
• Məlumat sızmasını müşahidə etmək və gözləmək
√ Gizlilik haqqında əlavə təlimatlar keçirmək
• Gizli məlumatlara giriş hüququnu hər kəsə açıq saxlamaq

272. Bir işçi təşkilatın əsas dəyərlərini qəbul edə bilmir və mütəmadi olaraq həmkarlarının təkliflərinə qarşı çıxır. Bu, komanda daxilində gərginliyə səbəb olur. Bu vəziyyətdə hansı strategiya tətbiq edilməlidir?

• İşçini başqa şöbəyə transfer etmək
√ İşçini təşkilatın dəyərləri ilə tanış etmək və uyğunlaşması üçün dəstək vermək
• İşçiyə yeni tapşırıqlar vermək
• İşçini dərhal işdən uzaqlaşdırmaq
• Həmkarlarını işçi ilə mübahisələrdən çəkinməyə çağırmaq

273. İşgüzar yazışmalarda "To", "Cc" və "Bcc" bölmələrindən necə istifadə edilməlidir?

• "To" hər kəsin ünvanı üçün istifadə edilir, "Cc" və "Bcc" nəzərə alınmır
• Bu bölmələrin istifadəsi iş mühitində əhəmiyyətli deyil
• "Bcc" ümumiyyətlə istifadə edilmir, yalnız "To" və "Cc" yetərlidir

√ "To" birbaşa ünvanlanan şəxslər, "Cc" əlaqəli şəxslər, "Bcc" gizli qalmasını istədiyiniz şəxslər üçün istifadə edilir
• "Cc" yalnız rəhbərlər üçün istifadə olunur, "To" və "Bcc" əhəmiyyətsizdir

274. Korporativ mədəniyyətin əsasını təşkil edən komponentlərdən biri hansıdır?

• Müştərilərin tələb və şikayətləri
• Geyim tərzi qaydaları
• Rəhbərlərin tənqidləri
√ Təşkilatın vizyon və missiyası
• İşçilərin fərdi maraqları

275. Normativ etik dəyərlər iş mühitində nə üçün vacibdir?

• Təşkilatın maddi gəlirlərini artırmaq üçün
• İdarəçilərin avtoritar idarəetmə qabiliyyətini artırmaq üçün
• Müştəri bazasını genişləndirmək üçün
√ Ədalətli, dürüst və məsuliyyətli iş mühiti yaratmaq üçün
• İşçilərin yalnız fərdi inkişafını təmin etmək üçün

276. Mobbinq ilə bullinq arasındakı əsas fərq nədir?

• Bullinq yalnız iş mühitində, mobbinq isə şəxsi mühitdə baş verir.
• Mobbinq yalnız qadınlara, bullinq isə kişilərə qarşı tətbiq edilir.
• Mobbinq hüquqi məsuliyyət doğurur, bullinq isə hüquqi məsuliyyət daşımır.
• Mobbinq bir şəxsin, bullinq isə bir qrupun tətbiq etdiyi zorakılıqdır.
√ Mobbinq bir qrupun, bullinq isə bir şəxsin zorakılıq tətbiq etməsidir.

277. Korporativ mədəniyyətin formalaşmasına təsir edən əsas amillərdən biri hansıdır

• İşçilərin geyim seçimi.
• İşçilərin şəxsi maraqları.
• İşçilərin şəxsi həyatları ilə bağlı problemlər.
• Şirkətin günlük gəliri.
√ Şirkətin yerləşdiyi coğrafi yer.

278. Rəhbər tabeçiliyindəki işçiyə mobbinq tətbiq edir. Bu vəziyyətdə işçi necə davranmalıdır?

• Heç bir tədbir görmədən gözləməlidir.
• Məsələni dərhal hüquq-mühafizə orqanlarına çatdırmalıdır.
• İşini itirməmək üçün vəziyyəti qəbul etməlidir.
√ Mobbinq edən şəxslə danışmalı və rəhbərinə məlumat verməlidir.
• Digər işçilərlə mobbinq edən şəxsə qarşı qrup yaratmalıdır.

279. İşgüzar yazışma zamanı elektron məktubda diqqət edilməli əsas məqam nədir?

• Rəngarəng şriftlərdən istifadə etmək.
• Mövzu sətrinin boş buraxılması.
• Böyük hərflərlə yazmaq.
√ Peşəkar elektron imzanın əlavə olunması.
• Məktubu 48 saat ərzində cavablandırmaq.

280. X şirkətində avtoritar idarəetmə tərzi tətbiq edilir. Bu idarəetmə tərzinin mənfi təsiri nə ola bilər?

- İşçilərin iş vaxtını dəqiq bölüşdürməsi.
- İşçilərin məsuliyyət hissinin artması.
- Rəhbər və işçi arasında güclü kommunikasiya qurulması.
- √ şçilərin təşəbbüskarlığının azalması və mənəvi iqlimin zəifləməsi.
- Şirkət gəlirlərinin azalması.

281. Korporativ mədəniyyət nədir?

- Şirkətin hər il dəyişən davranış qaydalarıdır.
- İşçilərin şəxsi həyatlarına təsir edən sosial qaydalar toplusudur
- Şirkət rəhbərlərinin hazırladığı hərtərəfli iş planıdır
- √ Şirkətin əməkdaşları arasında bölüşən dəyər, simvol və inanc sistemidir.
- Şirkət işçilərinin geyim qaydalarını tənzimləyən normativlərdir.